*Hal-hazırda Şuşada yaşayan Bakıdan məcburi köçkün düşmüş erməni ailəsinin otağında divar.*
*Mənbə: Lorens Broers*

# Azərbaycan və Ermənistan cəmiyyətlərində "nə sülh, nə savaş" sindromlarının nəticələri


## Laura Bağdasaryan və Arif Yunusov

Moskva Dövlət Universitetinin məzunu olan Laura Bağdasaryan 1990-cı ildən sonra Cənubi Qafqazda siyasətin tədqiqi ilə məşğuldur. Hazırda Yerevanda yerləşən "Region" jurnalist təhqiqatları mərkəzinin direktorudur.

1972-1992-ci illərdə Arif Yunusov Azərbaycan Elmlər Akademiyasının elmi əməkdaşı olmuşdur. 1992-93-cü illərdə prezident aparatının məlumat şöbəsinin rəisi vəzifəsində çalışıb. Hazırda Bakıda Sülh və Demokratiya İnstitutunun münaqişələr və miqrasiya tədqiqatları şöbəsinə rəhbərlik edir.


Hər bir müharibədə olduğu kimi, Dağlıq Qarabağ münaqişəsi də qaçqın izdihamları, humanitar və sosial böhranla müşayiət olunan bir çox ciddi sosial problemlərə gətirib çıxartdı. Buna baxmayaraq, Ermənistan və Azərbaycan cəmiyyətlərində baş verən dəyişikliklərə nəzər salarkən, münaqişənin "müharibədən sonrakı" nəticələrini bugünkü çıxılmaz vəziyyətin "nə sülh, nə savaş" sindromlarından ayırmaq lazımdır. Bu sindromlara demokratik inkişafı ləngidən amillər - vasitəçiliyə ziddiyyətli münasibət, hərbiləşmə və savaş iştirakçıların "sülh prosesinə" cəlb olunması, Ermənistan və Azərbaycanın müvafiq olaraq qalib və qurban kimi tanınması daxildir. Lakin bu sindromların üstünlük təşkil etməsi və "düşmənə" aqressiv münasibətin formalaşmasında oynadıqları rolu bizi onlara "müharibədən sonrakı" sindromlar kimi yox, daha çox hərbi əməliyyatların sonrakı dövrə məxsus sindromlar kimi baxmağa vadar edir. Bu cür qeyri-müəyyənlik bugünkü vəziyyətin səciyyəvi cəhətidir: münaqişənin hər iki tərəfində iqtidar və müxalifətdə olan radikalyönlü qüvvələr cəmiyyətdə "əks tərəfə" qarşı antaqonizmi saxlamağa çalışdıqları zaman, bu vəziyyətin ifratçılığa varmasının qarşısını almaq zərurəti yaranmışdır. Bu cür "idarə edilən antaqonizm" əsas oyunçulara müəyyən siyasi dividentlər qazandırmaqla Qarabağ amilindən daxili siyasi mübarizədə fəal surətdə istifadə edilməsinə sövq edir. Bu cür yanaşma nəticəsində elə fikir formalaşıb ki, əslində siyasi elitalar yox, məhz cəmiyyətlər özləri münaqişənin nizamlanmasına hazır deyillər, və beləliklə də, nifrət və düşmənçilik Azərbaycan-erməni münasibətlərinin həlledici cəhətləridir.

## Müharibənin nəticələri və sosial dəyişikliklər

"Nə sülh, nə savaş" sindromunu daha yaxşı anlamaq üçün, müharibənin nəticəsində Azərbaycanda və Ermənistanda baş vermiş bəzi dəyişiklikləri təhlil etmək yerinə düşərdi. Bu, ən əsası, müharibə vaxtı və müharibədən sonra insanların kütləvi yerdəyişmələridir, bu da hər iki tərəfin demoqrafik və siyasi landşaftında öz əksini tapmışdır. Münaqişənin ilk çağlarında qaçqınların məsələsi ilhamverici ideya idi və münaqişə aparan tərəflər arasında ən qızğın mübahisələrin mövzusuna çevrilmişdi. Zaman keçdikcə bu problem danışıqlara qatılan erməni və azərbaycanlı iştirakçıların ritorikasında müxtəlif konturlar almağa başladı. Məcburən köçürülmüş azərbaycanlı əhalinin yerləşdiyi çadır düşərgələrinin (və ya çadır şəhərciklərinin) bütün bu müddət ərzində mövcud olması bütün Azərbaycan cəmiyyətinə münaqişənin nizamlanmamış qalmasını xatırladırdı və bu düşərgələrə baş çəkən beynəlxalq vasitəçilər üçün isə azərbaycanlıların münaqişədən necə əziyyət çəkdiklərinin bariz nümunəsi idi. Bundan fərqli olaraq, erməni qaçqınlarının məsələsindən heç vaxt belə açıq şəkildə siyasi məqsədlər üçün istifadə edilməyib. Aşağıdakı bölmələrdə biz miqrasiyanın hər iki ölkədə müxtəlif təsirlərini göstərəcəyik.

### Qaçqınlar və məcburi köçkünlər

Münaqişə başlayan kimi, 1988-ci il fevral ayından hər iki tərəfi əhalinin kütləvi miqrasiyası dalğası




bürüdü. 1990-cı ilə qədər Azərbaycan hökumətinin qeydiyyatında böyük sayda Ermənistandan gəlmiş qaçqınlar (bax. Cədvəl 1) və Özbəkistandan köçmüş 48.000 məshəti türkləri var idi.

**Cədvəl 1.** Ermənistandan Azərbaycana gəlmiş qaçqınlar (qeydiyyatdan keçənlər), 1990-cı ilə qədər

| | Fevralda | Sentyabrda |
|---|---|---|
| Azərbaycanlılar | 186.000 | 201.000 |
| Kürdlər | 18.000 | 2.500* |
| Ruslar | 3.500 | 1.500 * |

** rus və kürd qaçqınlarının əksəriyyəti 1990-cı ildə Rusiyaya gedib.*

**Cədvəl 2.** Dağlıq Qarabağ və yeddi işğal olunmuş rayonlardan azərbaycanlı məcburi köçkünlər barədə Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatı, 1993-cü il

| Aprel | Dekabr |
|---|---|
| 243.000 | 779.000 |

Baxmayaraq ki, Dağlıq Qarabağdan köçkün düşmüş azərbaycanlıların qeydiyyatı həddindən artıq çətin bir proses idi, 1993-94-cü illərdə Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq (bax. Cədvəl 2) Azərbaycan hökuməti respublikada bir milyondan çox qaçqının və məcburi köçkünün olması bəyanatı ilə çıxış etdi, bu da ümumi ölkə əhalisinin 12%-ni təşkil edirdi. Sonrakı siyasi sabitliyə baxmayaraq, hökumət eyni rəqəmləri göstərməkdə davam edir. Bununla belə, müstəqil ekspertlərin, BMT və Beynəlxalq Miqrasiya Təşkilatının məlumatlarına əsasən, bu gün Azərbaycanda təxminən 750.000 qaçqın və məcburi köçkün var, bu da əhalinin təqribən 9%-ni təşkil edir.

Ermənistanda qaçqın və məcburi köçkünlərə gəlincə, burada da dəqiq mənzərəni görmək çətindir. Rəsmi məlumatlara əsasən, 1993-cü ilin sonunda Qarabağ və Abxaziya münaqişələri nəticəsində Ermənistana gəlmiş qaçqın və məcburi köçkünlərin ümumi sayı Ermənistan əhalisinin təqribən 11%-ni təşkil edirdi. (bax. Cədvəl 3). Bunlar da, çox güman ki, müxtəlif beynəlxalq sənədlərə düşən şişirdilmiş rəqəmlərdir: Ermənistan üzrə bu cür rəsmi məlumat əsasında, BMT təxminən 500.000 qaçqının olduğunu deyir. Zaman keçdikcə onların bir qismi Qarabağa qayıdıb və ya sadəcə olaraq, Ermənistanı tərk ediblər. Beləliklə də, 2000-ci ilin dekabrında qaçqınlar respublika əhalisinin 8%-dən artıq idi. Azərbaycandan olan təxminən 30.000 qaçqın 2002-ci ilin əvvəlində Ermənistan vətəndaşlığını qəbul ediblər.

**Cədvəl 3.** Ermənistan hökuməti tərəfindən qeydiyyatdan keçmiş qaçqınların və məcburi köçkünlərin sayı.

| | 1993-cü ilin sonu | 2000-ci il, dekabr |
|---|---|---|
| Azərbaycandan və Dağlıq Qarabağdan olan ermənilər | 335.000 | 238.000 |
| Sərhəd rayonlarından köçürülmüş şəxslər | 78.000 | 72.000 |
| Abxaziyadan olan qaçqınlar | 6.000 | 8.000 |
| Çeçenistandan olan qaçqınlar | – | 3.000 |

## Müharibədən sonrakı miqrasiya

1994-cü ildə atəşkəs imzalandıqdan sonra hər iki respublikadan əhalinin axını davam edirdi. Bu miqrasiya daha çox siyasi sabitsizlik və iqtisadi çətinliklərlə bağlı idi, bu da emiqrantların etnik tərkibində özünü büruzə verirdi - bunlar azlıqların nümayəndələrindən daha çox əsasən ermənilər və azərbaycanlılar idi. Əhali axını əvvəlki kimi kütləvi xarakter daşıyırdı, bu da dəqiq məlumatların alınmasını qeyri-mümkün edir. Lakin Azərbaycandakı rəsmi mənbələrə əsasən 1994-cü ildən başlayaraq buranı 800.000 nəfər tərk edib, və bu rəqəmlər, şübhəsiz ki, azaldılıb. 1991-2000-ci illər ərzində 1,5 milyondan çox insan təkcə Rusiyaya gedib, qeyri-rəsmi məlumatlara əsasən hal-hazırda orada 2 milyondan çox Azərbaycan vətəndaşı (respublika əhalisinin dörddə biri) yaşayıb işləyir.

Azərbaycanda olduğu kimi, Qarabağın özündə atəşkəs münaqişə zonasından Ermənistana qaçqın axınına son qoydu, lakin Ermənistanda sosial-iqtisadi vəziyyətin pisləşdiyindən ölkədə miqrantların sayı nəzərə çarpacaq dərəcədə artdı. Müstəqil ekspertlərin rəqəmlərinə əsasən 1990-2001-ci illər ərzində Ermənistanı 1 milyona yaxın insan tərk edib (bax. Cədvəl 4), başqa sözlə, əhalinin minimum 26% müstəqilliyin birinci onilliyində ölkəni tərk edib.

**Cədvəl 4**. Ermənistandan digər ölkələrə emiqrasiya edən insanların sayı barədə müstəqil ekspertlərin gətirdiyi rəqəmlər, 1990-2001-ci illər

| | |
|---|---|
| Rusiya | 620.000 |
| ABŞ | 100.000 |
| Ukrayna | 80.000 |
| Qərbi Avropa | 20.000 |
| Belarus | 15.000 |

## Demoqrafik dəyişikliklər

Hər iki respublikanın demoqrafik konturları müharibə və onun nəticəsində yaranmış sosial-iqtisadi və siyasi vəziyyətlə bağlı olan sonrakı dəyişikliklərə məruz qalıb. Münaqişə zamanı Azərbaycanı 600.000-dən çox milli azlıqlardan olan vətəndaşlar tərk etmişdir; nəticədə qalan əhalinin 90%-i etnik azərbaycanlılardan ibarətdir. Azərbaycanlı olmayan əhalinin tərkibi də kəskin surətdə dəyişilib: əgər əvvəllər əsas milli azlıqlar ermənilər və ruslar idisə ("Siyasi lüğətə" bax), bu gün onların yerini ləzgilər, talışlar və kürdlər tutub.

Ermənistandan ən böyük miqrant axını azərbaycanlılardan və müsəlman kürdlərdən ibarət idi. Demək olar ki, Ermənistandan bütün müsəlman əhalinin köçürülməsi münaqişənin ən ağır illərində baş verib. Hələ sovet vaxtı demoqrafik cəhətdən marginal xarakter daşıyan digər etnik qrupların miqrasiyası Ermənistan əhalisinin strukturuna böyük təsir göstərmədi.

Bütün bu məlumatlar Qarabağ münaqişəsinin necə humanitar fəlakətə çevrildiyini bir daha sübut edir. Rəqəmlərin arxasında ciddi psixoloji travma alan canlı insanlar durur, baxmayaraq ki, onlardan bəziləri yeni şəraitdə yeni həyat qura bilmişlər. Çadır şəhərciklərində məskunlaşmış azərbaycanlı məcburi köçkünlərinin vəziyyəti daha acınacaqlıdır. Xəstəlik, yoxsulluq, ildən ilə azalan beynəlxalq yardım, problemlərin həll edilməsindən daha çox qaçqınlardan öz təbliğat məqsədləri üçün istifadə etməyi üstün sayan hökumət - bütün bunlar əhalinin bu təbəqəsində radikallığın artmasına gətirib çıxarır. Qaçqınların öz problemləri barədə danışmaq cəhdləri ictimai iğtişaşlar, yolların bağlanması və hüquq-mühafizə orqanları ilə toqquşmalarla müşayiət olunur. Onların ümidsizliyi və məyusluğundan müxalifət də istifadə etməyə çalışır, bu fakt isə vəziyyəti daha da ağırlaşdırmaqla onun nizamlanmasını çətinləşdirir.

## Keçmiş döyüşçülər

Müharibə vaxtı döyüşçülərə cəmiyyətdə vətənin qəhrəman müdafiəçiləri kimi baxırdılar. Onların siyasi roluna münasibət birmənalı deyildi. 1988-1991-ci illər ərzində erməni və Azərbaycan qoşunlarının və özünümüdafiə dəstələrinin kortəbii təşkilatlanması baş verirdi. Siyasi partiyalar da daxil olmaqla siyasi proseslərin bir çox iştirakçıları onlardan siyasi opponentlərin neytrallaşdırılması məqsədləri ilə istifadə edirdi. Ermənistan birinci olaraq, qanunsuz hərbi dəstələrin təhlükəsini başa düşdü və 1990-91-ci illərdə demək olar ki, onların hamını nizami qoşunlara daxil etdi, bununla belə, onlardan çoxu sadəcə Dağlıq Qarabağdakı hərbi əməliyyatlar zonasında yerləşdirildi. Ermənistanda olan silahların yarısı (on min ədəd) əhalidə qaldı, və bu da, öz növbəsində, cinayətlərin artmasında özünü göstərdi.

Azərbaycanda nizami silahlı qüvvələrin formalaşma prosesi gec baş verdi, və 1993-cü ildə Qarabağda həm könüllü özünümüdafiə bölmələri, həm də bu və ya digər siyasi təşkilatın hərbiləşdirilmiş dəstələri döyüşürdü. 1992-ci ildə ən qızğın döyüşlər vaxtında Azərbaycan ordusunun 21.000 hərbi qulluqçusu, Xalq Cəbhəsinin və digər siyasi partiyaların könüllü taburlarında 7.000 əsgər, həmçinin xüsusi təyinatlı polis dəstələrinin (OPON) sıralarında 4.000 nəfər Qarabağda döyüşürdü. Bu müharibədə könüllü dəstələrin miqyası Azərbaycan hökuməti üçün böyük problem yaratmışdı: 1993-cü ildə prezident Heydər Əliyev əsasən müxalifət tərəfdarlarından ibarət olan 33 könüllü taburu buraxdı. Bu, cəbhədə böhranın yaranmasına və sonradan ermənilər tərəfindən Dağlıq Qarabağ ətrafındakı yeddi rayonun zəbt edilməsinə başlıca səbəb oldu. 1994-95-ci illərdə Əliyev 710 OPON zabitini həbs edib onların dəstələrini eyni cür buraxdı.

Atəşkəsdən sonra keçmiş döyüşçülərin rolu cəmiyyətlərin hər birində müxtəlif oldu. Keçmiş döyüşçülərin təşkilatı veteranlara, yaralıların və həlak olmuş insanların ailələrinə kömək edir və

gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ilə məşğul olurlar. Cəmiyyət belə təşkilatların gördüyü işləri bəyənir, çünki onların məqsədi dövlət qayğısından kənarda qalmış cəmiyyətin ləyaqətli üzvləri üçün ədaləti bərpa etməkdir.

Ermənistanda keçmiş döyüşçülərin ən nüfuzlu təşkilatı "Yerkrapa" ("Ölkənin müdafiəçiləri") 1994-cü ildə Ermənistanın birinci müdafiə naziri Vazgen Sarkisyanın təşəbbüsü ilə yaradılmışdı. Qarabağ münaqişəsinin başlanğıcından ölkənin hərbi-siyasi həyatında əsas şəxslərdən olmuş Sarkisyan Müdafiə Nazirliyini tərk etdikdən sonra da böyük nüfuza malik idi. "Yerkrapa" həqiqətdə Müdafiə Nazirliyi tərəfindən maliyyələşdirilirdi, üzvlərinin isə fərdi silah daşıma hüququ var idi. Sayca böyük olan təşkilat (40.000 nəfər) xüsusən də 1996-cı il prezident seçkilərindən sonrakı müddətdə ölkənin daxili siyasi həyatında mühüm rola malik idi. Seçkilərin nəticələrindən hiddətlənmiş müxalifətin təşkil etdiyi küçə etirazlarına cavab olaraq, hökumət Yerevanda fövqəladə vəziyyət elan edib nəzarəti "Yerkrapa"ya tapşırdı. Bundan əlavə, təşkilat üzvləri qanunla yalnız nizami ordunun əsgərlərinə aid olan səhra formasına geyinmiş, pulemyotlar, qumbaraatanlar, snayper tüfəngləri və əl qumbaraları ilə silahlanmışdılar. "Yerkrapa" 1999-cu ildə Sarkisyana qarşı edilmiş sui-qəsdə qədər böyük nüfuza malik idi.

Atəşkəsdən sonra Azərbaycanda bir qədər fərqli vəziyyət hökm sürürdü. Hökumət rəsmən keçmiş döyüşçülərin qayğısına qalmaq öhdəçiliyini öz üzərinə götürsə də, elə ilk vaxtlardan Qarabağ veteranlarına böyük şübhə və inamsızlıqla yanaşırdı, veteranların ictimai və ya siyasi təşkilat yaratmaq təşəbbüslərinə hər vasitə ilə mane olur, lazım gəldikdə repressiv addımlardan belə çəkinmirdi. 1994-cü ilin oktyabrında həlak olmuş döyüşçülərin ailələrinə yardım göstərən "Nicat" komitəsi ləğv edildi, təxminən 40 Qarabağ veteranı müxtəlif maddələrlə məhkum edildi. 1990-cı illərin ikinci yarısında Azərbaycan hakimiyyəti keçmiş könüllü taburların döyüşçülərinə qarşı bir sıra məhkəmə proseslərinə başladı. Məsələn, "Qaranquş" dəstəsinə Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişinə cəhd ittihamı irəli sürüldü, nəticədə onlarla veteran həbs edildi. 2001-ci ilin yanvar-fevral aylarında təqaüdlərin artırılmasını tələb edən Qarabağ Müharibəsi Əlilləri Cəmiyyətinin etiraz nümayişində iştirak edənlərə amansız divan tutdu: nümayiş iştirakçıları olan 14 əlil həbs edilib məhkum olundu. Qarabağ Azadlıq Təşkilatının fəallarına qarşı həmçinin dəfələrlə sərt tədbirlər tətbiq olunurdu.

Azərbaycanda sosial-iqtisadi vəziyyətin pisləşməsi və danışıqlar prosesinin nəticəsizliyindən irəli gələn ümidsizlik fonunda hökumətin veteranlara, xüsusən də əlillərə qarşı bu cür hərəkətləri cəmiyyətdə hiddətə səbəb olur və veteranları daha da radikallaşdırır. Sorğuların təsdiq etdiyi bu meyllər cəmiyyətin sülh prosesinə olan münasibəti haqqında təhlillərində də daim qeyd edilir.

## "Nə sülh, nə savaş" sindromu

Cəmiyyətdə vətənpərvərlik əhval-ruhiyyəsi adətən əhalinin orduya və onun hərbi hazırlığının qaldırılmasına olan münasibətində özünü büruzə verir. Hərbi xərclər məsələsi adətən militarizasiya təhlükəsi prizmasından yox, düşməndən gələn açıq-aydın təhlükə və mümkün təcavüzə hazır olmaq zərurəti nöqteyi-nəzərindən qəbul edilir. Son on bir il ərzində "Azərbaycan ordusu Ermənistan tərəfindən işğal olunmuş ərazilərin geri alınmasına həmişə hazır olmalıdır" və ya "Ermənistan və Dağlıq Qarabağın silahlı qüvvələri istənilən an Azərbaycan revanşizmini dəf etməyə hazır olmalıdır" kimi ifadələr müharibədən sonrakı status-kvonun mümkün dəyişməsi haqqında bəyanatların leytmotivinə çevrilmişdir.

Təəccüblü deyil ki, 2004-cü ilin sonunda Ermənistan və Azərbaycanda müəlliflərin keçirdiyi rəy sorğusuna əsasən, hər iki ölkədə respondentlərin əksəriyyəti hesab edir ki, əgər hərbi əməliyyatlar yenidən başlayarsa, məhz onların ordusu qalib çıxacaq. Bundan başqa, respondentlər qələbə əminliyini bu və ya digər ölkənin nə iqtisadi inkişafı, nə də digər amillərlə əlaqələndirmirlər. "Nə sülh, nə savaş" vəziyyətinin iki mümkün nəticəsi kontekstində belə əhval-ruhiyyə cəmiyyətdə hökm sürəndə aydındır ki, həm Ermənistanda, həm də Azərbaycanda hərbləşməni sual altına qoymaq yasaqdır. Ölkələrin hər birində belə yasaqlamanın vacib olması müxtəlif cür izah edilsə də, nəticələri eynidir. Ermənistanda hesab edirlər ki, ordu son müharibədə qələbə çaldığına görə, cəmiyyət ona etibar etməlidir. Azərbaycanda düşünürlər ki, əgər ordu tənqid edilərsə və ya onun fəaliyyətinə nəzarət qoyularsa, ordunun Azərbaycan torpaqlarını qaytarmaq imkanları zəifləyə bilər.

Azərbaycan və Ermənistan cəmiyyətlərində "qalib" və "məğlub" sindromları Qarabağ müharibəsinin acı nəticələrindən biridir. Bu məqalədə biz diqqəti bu sindromların daha az nəzərə çarpan əlamətlərinə, o cümlədən cəmiyyətin hərbləşdirilməsi mövzusuna qoyulmuş yasağa yönəltdik. Müəlliflərin keçirdiyi rəy sorğularının nəticələrində bu sindromların digər aspektləri də öz əksini tapmışdır. "Qalib" və "məğlub" sindromları cəmiyyətin təhlükələrə olan münasibətinə təsir göstərir: əgər Azərbaycan üçün nizamlanmamış qalan Qarabağ münaqişəsi onun üçün əsas təhlükə mənbəyidirsə, ermənilər Qarabağ münaqişəsini "həll edilmiş" hesab edib başlıca təhlükəni daxili siyasi tendensiyalarda görürlər. Azərbaycan cəmiyyətində xarici dövlətlər və beynəlxalq təşkilatlara olan münasibət onların Qarabağ münaqişəsi məsələsində tutduqları mövqelərindən asılıdır. Ermənistanda xarici oyunçulara münasibət daha müxtəlifdir. Bu baxışlar hər iki ölkədə KİV-in yaydığı kifayət qədər qərəzli məlumatların nəticəsində formalaşmışdır. Erməni və Azərbaycan cəmiyyətləri arasında körpülər salınmayana kimi qarşılıqlı təcrid bitməyəcək.